## FƏXRƏDDİN YUSİFOV - 70

# MÜƏLLİMLİK MİSSİYASINDAN YAŞAM FƏLSƏFƏSİNƏ

Ədəbi-mədəni, pedaqoji mühit bütün zamanlarda dövrün ictimai-siyasi problemlərini öz çiyinlərində daşıya biləcək ziyalıların fəaliyyəti, mübarizliyi və prosesə fəal mövqeyini ortaya qoya bilmək missiyası ilə diqqət önünə gəlir. Cəmiyyətin ağrı-acı dolu müşkülləri də lokal və milli səviyyədə onların qənaətləri və müşahidələri, obyektiv münasibət sərgiləmək səriştəsilə konseptləşir. Belə bir ömür yolu yaşamaq isə hər kəsə nəsib olmur. Bunu ancaq fədailər, içi yurd, torpaq sevgisi ilə dolu olanlar, şəxsiyyət kimi formalaşa bilən tək-tək adamlar yaşaya bilir. Tanınmış pedaqoq alim Fəxrəddin Yusifov məhz belə ömür yolu seçən tək-tək ziyalılardandır. Onu tanıdığım və fəaliyyətini yaxından izlədiyim üçün bütün məsuliyyətilə deyirəm.

Artıq istedadlı pedaqoq və müasir pedaqoji fikir tarixində kifayət qədər söz sahibi olan, gərgin əməyi və zəhmətsevərliyinə görə Fəxri fərmanlarla, "Tərəqqi" medalı ilə təltif olunmuş Fəxrəddin Allahverdi oğlu Yusifovun yetmiş yaşı tamam olur. O, 23 fevral 1956-cı ildə türk xalqlarının qədim mədəniyyət beşiklərindən olan Borçalı mahalının (Dmanisi rayonu) Muğanlı kəndində anadan olmuşdur. Ümumiyyətlə, dünyanın bu cür gərginliklərlə, çəkişmə və müşküllərlə dolu zamanlarında bu yaşa gəlib çatmaq özü bir qəhrəmanlıqdı. Həm də Fəxrəddin müəllim kimi şəxslər üçün bu ikiqat çətindir.

Azərbaycanın müstəqilliyindən sonrakı proseslər ziqzaqlı gedişlərlə, müxtəlif tendensiya və mürəkkəb situasiyaların bir-birini izləməsilə diqqət önünə gəlir. Fərqli yanaşmalar, problemlərin həllində özünü göstərən mövqe nümayişləri, imperiya məfkurəsinə dayanan stereotiplərin oyanışı məsələyə sırf ümummilli maraqları bir məqsəd olaraq aparıcı mövqeyə çıxarırdı. İctimai-siyasi, ədəbi-mədəni mühitin bütün sahələri bu müşküllərlə üz-üzə dayanırdı. Bu gün də belədir. Daxili və xarici tendensiyalara qarşı dayanmağın, obyektiv mövqe nümayiş etdirməyin yolu ancaq və ancaq vətəndaşlıq missiyasından keçir. Pedaqogika üzrə fəlsəfə doktoru, dosent F.Yusifovun bütünlükdə fəaliyyəti məhz bu təsəvvürün təqdim və reallaşmasına, cəmiyyət səviyyəsində eyni mövqe nümayiş etdirməyə bağlanır.

Elmi-pedaqoji fikir tariximizə gərəkli töhfələr verən alimin yaradıcılığını bir neçə istiqamətdə təhlil eləmək lazım gəlir. Müəllim, alim, ictimaiyyətçi və s. kimi fəaliyyətinin ehtiva etdiyi tərəflər buna nümunədir. Gəncə Dövlət Pedaqoji Universitetini (keçmiş H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunu) fərqlənmə diplomu ilə bitirən F.Yusifovun ömür yolunun ana axarını müəllimlik fəaliyyəti müəyyənləşdirir. O, ömrünü şam kimi gənc nəslin formalaşması sahəsində əridən şəxsiyyətlərdən olmuşdur. Orta məktəb və ali məktəb auditoriyasında onun dərs dediyi şagird və tələbələr Fəxrəddin müəllimdən təkcə ədəbiyyatımızı öyrənməmiş, həm də şəxsiyyət timsalında ədəb-ərkanı, davranışı, xalqın milli-mənəvi dəyərlərinə necə sahib durmaq missiyasını mənimsəmişlər. Görkəmli pedaqoq F.Köçərli vurğulayırdı ki, müəllim təkcə elmi, biliyi, sənətsevərliyi ilə deyil, həm də auditoriyanı sevən ürəyə malik olmalıdır. Fəxrəddin Yusifov bütün etdikləri, düşüncəsi və fəaliyyətilə bu ruha köklənmiş şəxsiyyətlərdəndir.

Azərbaycan xalqının tarixi təsəvvüründə müəllim adının, şəxsiyyətinin uca tutulması, müqəddəsləşdirilməsi var.



Təəssüf ki, son dövrün prosesləri digər istiqamətlərdə olduğu kimi, bu istiqamətdə də aşınmalara, sarsıntılara, bəzi əndazədən çıxan tendensiyalarla üz-üzə qalmaq məcburiyyətinə sürükləndi. Xalq müəllimi düşüncəsinin zədələnməsi sahəsində yeri gəldi-gəlmədi yuxarıdan aşağıya addımlar atılmağa və təsəvvür formalaşdırılmağa başlandı. Məsələn, əməkdar müəllim adı paylandı. Dərslik məsələlərində də eyni hal yaşandı. İşi iş bilənlərə deyil, sahibi, himayədarı olanlara verdilər. Klassik dərslik yaratma tipi zədələndi. Münasibətlə dərsliklərə zəif bədii örnəklərin salınmasının axını başladı. Çağdaş ədəbiyyat nümayəndələrinin elə də mükəmməl olmayan əsərlərinin dərsliklərdə at oynatması bir tendensiyaya çevrildi. Geniş kütlə bunlara üst qatda bir seyrçi kimi qalsa da, ancaq alt qatda öz qərarını verdi, münasibətini sərgilədi.

Məqsədyönlü siyasət olaraq özünü göstərən bu proses bütün səviyyələrdə müəllimin və bütünlükdə pedaqoji prosesin işini çətinləşdirdi. F.Yusifov kimi fəal mövqeli müəllimlər buna biganə qalmadı, müxtəlif aspektdə məsələlərə özlərinin mövqeyini bildirdi. Mübarizə və mücadilə bayrağını qaldırdı. Çoxlarının deyə bilmədiklərini tribunal şəkildə mətbuat səhifələrində, eləcə də konfrans və disputlarda bəyan elədi. Gedilən yolun yanlışlıqlarını bir bütöv olaraq ictimailəşdirdi. Məsələnin köklü olaraq həlli olmasa da, ancaq meydanda at oynatmaların qarşısı nisbətən alındı, həyəcanı yaşandı.

Gəlinən ömür yoluna baxdıqda hərə Ulu Yaradanın bəxş etdiyi ömrü bir cür yaşayır. Bütün bunları gördüklərim və müşahidə etdiklərimdən çıxış edərək yazıya gətirirəm. Həyatda Fəxrəddin müəllim kimi olmaq və yaşamaq çox çətindir. Hər kişinin işi deyildir. Başından bu yetmiş illik ömür yolunda çox tufanlar, qasırğalar keçsə də yenə öz yoluna, üslubuna, ampluasına sədaqət göstərdi. Həm də göstərməkdədi. Baş alıb gedən tendensiyalar, süni sədd çəkmələr onun böyük işinə heç bir təsir etmədi. Əksinə, mətinləşdirdi, ətrafı üçün nümunəyə çevrildi.

F.Yusifov bütün səviyyələrdə söz və düşüncə (həm də mövqe) sahibi olan azaz şəxsiyyətlərdəndir. Böyük tənqidçi V.Belinski şairin yaradıcılığını şəxsiyyət timsalında təhlil edərək vurğulayırdı ki, "şairin yaradıcılıq fəaliyyətinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhundadır, buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır. Əgər siz şairin şəxsiyyətini ciddi, qərəzsiz və ədalətlə tədqiq edib öyrənmiş və şairi düzgün başa düşmüsünüzsə, o halda siz, küləyin gücünə, öz şıltaq fantaziyanızın göylərində haraya gəldi, baş alıb getmirsiniz". Müəllimin, ümumiyyətlə, hər hansı sənət sahibinin şəxsiyyətini də məhz onun ruhunda, düşüncəsində olanlarda axtarmaq lazımdır. Fəxrəddin Yusifovun şəxsiyyətini bu kontekstdə təhlil etdikdə daha böyük ucalıq gözümüzün qarşısında canlanır.

Haqqın, ədalətin yanında durmaq və dura bilmək bütün zamanlarda çətin olub, illah da şərin ayaq tutub yeridiyi zamanlarda bu iş birə beş çətinləşir. Azərbaycanın müstəqilliyindən sonra məkrli tendensiyalar aşıb-daşmaqla gözlərimiz qarşısında canlandı. Həyatın bütün tərəflərində, eləcə də elmdə, təhsildə, pedaqoji mühitin ümumi axarında bunlar qabarıq şəkildə özünü nümayiş etdirdi. F.Yusifov bir müəllim kimi tələbə auditoriyasında milli məfkurədə olanlardan çıxış etməklə dövlətçilik düşüncəsinə kökləndi. Klassik ənənənin min illər boyu sərgilədiyi təsəvvürü, əxlaq və tərbiyə normativlərini əsas götürərək gənc nəsli formalaşdırmağa, müəllim ordusunu cəmiyyətin dəyərlərinə sahib durmaq düşüncəsinə kökləmək yolunu tutdu. Bütün bunları əsas götürən və fəaliyyətində devizə çevirən alim yazır: "Bu bir həqiqətdir ki, oxumaqla müəllim olmaq az bir işdir, əsl müəllim anadan müəllim kimi doğulmalıdır. O müəllimlər xoşbəxtdir ki, onların qəlbində sənətinə, şagirdlərinə, vətəninə, dövlətinə, dövlətçiliyinə, milli-mənəvi dəyərlərinə, azərbaycançılıq idealına sədaqət və məhəbbət hissi ilə dünyaya - müəllimlik dünyasına göz açırlar". F.Yusifov məhz bu düşüncə və təsəvvürdə dünyaya göz açanlardandır, həm də dərs dediyi böyük tələbə kollektivinə bu təsəvvürdən yanaşmaqla nümunəyə çevrilmiş müəllimlərimizdəndir.

Yetmiş yaş ömrün müdriklik çağıdır və hərə bu yaşa fərqli yaşam tərzlərilə gəlib çatır. Fəxrəddin müəllim bu yaşa mübariz və həyat reallığına dik baxmağı bacaran ziyalı olaraq gəlib çatan şəxsiyyətlərdəndir. Belələri isə çox az olur və bunun üçün gərək gen yaddaşın ola və çox şeylərdən keçə biləsən. Fəxrəddin müəllim ictimai və pedaqoji mühitdə (eləcə də ədəbi-mədəni mühitdə) söz sahibi olan alimlərimizdəndir. Vətəndaşlıq mövqeyi olan ziyalılarımızdandır. Bu mövqe şəxsi maraqlardan çox-çox uzaq olan alimin həyat kredosunu müəyyənləşdirir. Məqalələri, dərs vəsaitləri, dərslikləri, müxtəlif səviyyələrdə çıxışları bunun bariz örnəyidir. "Orta məktəbdə S.Ə.Şirvani əsərlərinin dilinin öyrədilməsi" (2001), "Orta məktəbdə "Dastani-Əhməd Harami"nin məzmununun öyrədilməsi" (2003), "Məktəbdə ədəbiyyat dərslərinin təşkili" (2003), "Məktəbdə Nəsimi əsərlərinin məzmununun öyrədilməsi" (2004), "Ədəbiyyatın tədrisi metodikası" (testlər) (2010), "İfadəli oxu" (2012), "Ədəbiyyatın tədrisi metodikası" (2024) və s. metodik vəsait, dərs vəsaiti, dərslik və s. tədqiqatçı alimin sistemli elmi araşdırma konsepsiyasının göstəricisidir.

Çağdaş mərhələdə problemli olan məsələlərdən biri tədris prosesi ilə əlaqədar metodik yanaşmaların əndazədən çıxması halıdır. Bunlar kadr hazırlığı məsələlərindən tutmuş tədrisin metod və üsullarına qədər geniş bir sferanı sərgiləyir. Bütün bunların isə yerinə qoyulması və yanlışlıqlara, səhv tendensiyalara açıq mövqe sərgiləyə bilmək bacarığı hər kəsə nəsib olmur. Ənənəvi təhsil modelləri və klassik müəllimlərin əldə etdiyi təcrübənin yeni şəraitə uyğunlaşdırılması, qloballaşan dünya səviyyəsində gedən dəyişmələrə açıq (həm də millilik baxımından) mövqe sərgiləmək mühüm olandı. Son dövrün prosesləri isə dağıdıcı funksiya ilə özünü göstərir və xaricdən gətirilənlərə büt kimi yanaşmaqla ona sədəni, aludəçiliyi ön xəttə çıxarır. Bütün bunlar və bu kimi məsələlər ciddi təhlillərdən sonra qərarlaşdırmanı zəruri edir. Fəxrəddin müəllim hər cür yeniliyə açıq olan şəxsiyyətlərdəndir. Onun "Ədəbiyyatın tədrisi metodikası" dərsliyi və pedaqoji fəaliyyətindəki öyrətmənlik üsulları bunun bariz göstəricisidir.

Son dövrlərdə dərslik adı ilə çoxlu kitablar çap olunmaqdadır. Yerindən duran cızma-qarasının altına "dərslik" adı yazmaqla işini yola verir və liberallıq səviyyəsində bunlara göz yumulur. Əlbəttə bu halları müvəqqəti olan kimi başa düşürəm, cəmiyyətin, ictimai-siyasi proseslərin çətinliklər yaşadığı bir mərhələnin halı olaraq düşünürəm. Ancaq Fəxrəddin müəllim "Ədəbiyyatın tədrisi metodikası" dərsliyi ilə çağdaş elmi-pedaqoji mühitə nümunə olaraq özünü göstərdi. "Kitabdakı başlıq və bölmələr ("ƏTM-in predmeti və nəzəri əsasları", "Ədəbiyyatın tədrisi tarixi", "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)", "Ədəbiyyat kursunun məzmunu və məktəbdə öyrədilməsi sistemi", "Ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu)", "Ədəbiyyat tədrisinin təşkili", "Ədəbiyyat tədrisinin təşkilinə verilən tələblər", "Fəalinteraktiv dərsin mərhələləri", "Ədəbiyyat təlimində yeni texnologiyalar", "Ədəbiyyat təliminin ənənəvi və yeni üsulları", "Ədəbiyyat müəlliminin keyfiyyətləri" və s.) bütün mahiyyətilə tədrisin problemlərini, mənimsəmənin metodlarını təqdimə və nümunə olaraq müəllimlərə aşılamağa yüklənir.

On üçüncü yüzilliyin görkəmli mütəfəkkiri N.Tusi vurğulayırdı ki, "yalnız elmi biliklərlə zənginləşmiş mənən sağlam adamlar cəmiyyət üçün faydalı ola bilər". F.Yusifov da həmin mənən sağlam adamlardandır. Onun keçib gəldiyi ömür yolu və əldə etdiyi həyat təcrübəsi bunun göstəricisidir. Auditoriyalarda mühazirəsini dinləmiş, uzun illər onunla bir müəssisədə çalışmış müəllim kimi bunları deyirəm. O, auditoriyaya yanaşmağın üsul və yollarını bilən və ondan yüksək ustalıqla istifadə edən pedaqoqlarımızdandır.

Sadə, aydın dillə hər hansı problemi çatdıra bilmək ayrı bir bacarıqdır və bu onda kifayət qədər alınır. Elə dərslik və dərs vəsaitində, məqalələrində də eyni hal müşahidə olunur. Müəllim məsuliyyətindən danışan pedaqoq alimimiz yazır: "Sabahın ədəbiyyat müəlliminin öz üzərinə düşən məsuliyyəti, görəcəyi işin məzmununu aydın şəkildə dərk etməsi üçün ilkin olaraq təhsil sahəsində qəbul olunmuş qanunun, qərar və sərəncamların məzmunu ilə yaxından tanış olmalıdır. Bu rəsmi sənədlərlə tanışlıq onun bir müəllim kimi nə iş görəcəyini təsəvvür etməyə imkan yaradır". Tədris və məktəb sahəsində gedən proseslərin dinamik mənzərəsi bütün mahiyyətilə kadr hazırlığına və çağdaş dünya ilə ayaqlaşacaq vətəndaşı formalaşdırmağa xidmət edir. Pedaqoq alimimiz F.Yusifov ömrünü bu yolda şam edən, tələbə sevgisinə, sənət və Vətən sevgisinə bürünən sonuncu magikanlardandır.

Zəng vurulur. Doğma, əziz, həyatının mənası sandığın böyük auditoriyan, tələbkar tövrləri, inamlı baxışları, gülər üzləri ilə səbirsizliklə Sizi gözləyir, hörmətli Fəxrəddin MÜƏLLİM. 49 illik müəllimlik fəaliyyətin çox mübarək.

***Mahmud ALLAHMANLI***
***filologiya elmləri doktoru, professor***